# Qutsal Ocaqlar, Əski İnanc Yerlərimiz: Düldül Ocağı Və Əski Türk Yazısı

Posted on Avqust 1, 2012

## M.R.Yengi



Mirəli Seyidov "Azərbaycan mifik təfəkkürünün qaynaqları" adlı monoqrafiyasında bildirir ki, son vaxtlara qədər Azərbaycanın bir çox yerlərində ağac pirləri olmuşdur. Həmin pirlər əsasən uşaq – doğum pirləri kimi də məşhurdur. Buraya doğmayan qadınlar övlad arzusu ilə gəlib tapınar, səcdəyə düşərmişlər. Alimin yazdığına görə, a

çox qayın, şam və dağdağan ağacları müqəddəs ağac kimi qəbul edilirmiş. Eyni zamanda ölən adamların ruhunun əyəyə çevrilərək, çay, göl, dağ və s. kimi təbiət obyektləri ilə yanaşı ağaclarda yaşadığına inanılmışdır. Vaxtı ilə Azərbaycanda "hər bir şeyin, ağacın, suyun əyəsi var", "nə ki görürük, hamısı əyəlidi" ifadələri, "gecə ağac altına getməzlər əyəsi səni vırar" kimi inamlar mövcud olub və onlar ümumilikdə ağacla bağlı inanclar sisteminin bir hissəsi idilər. Azərbaycandan toplanılmış folklor nümunələrinin birində deyilir:

"…Dağın üstündə böyük bir ağac var, o ağac pirdi. Gərək ona yaxın getməyəsən. On beş metr aralıda dayanasan. Qollarını açasan, çağırasan. Özü də çağıranda səs verir. "Ay pir " deyəndə səs verir, ona nə sözün var ürəyində deyirsən, apardığın ayın-oyunu da qoyursan yerə, dala baxmadan qayıdıb gəlirsən".

Eyni inanc sistemi digər türk xalqlarına da xas olub. Məsələn, telenqitlər inanırdılar ki, hər ağacınezze-sahibi, ruhu var. Onların inamına görə ağacın ezzi-sahibi ruhu (aqaştın ezzi) insan taleyini himayə edir, bu üzdən də onlara qurbanlar verilərdi. Yakutlarda sonsuz qadınlar yuvalı qara şam ağacına gələr, ağ at dərisini ağacın altına sərib ağacın qarşısında dua edərlər. Altay mifologiyasına görə göy üzünə doğru çox böyük şam ağacı yüksəlir. Göyləri dəlib çıxan bu ağacın təpəsində Tanrı Ülgən oturur. Qadir Qədirzadə Sibir və Altay xalqlarında ağaclara bez, parça bağlamanı ağac yiyəsini (iççi) razı salmaq, yaxud ağac ruhuna qurban xarakteri daşıması ilə izah edir. A.M.Saqalayev yazır ki, dağ və göllə yanaşı, ağac da türk mifologiyasının ən qədim obrazlarından hesab olunur. Hunlar ağaca at qurbanı kəsir, kəlləsini və dərisini də budaqlarına asırdılar .

Yakutlarda sonsuz qadınların yuvalı qara şam ağacına gələrək, ağ at dərisini ağacın altına sərməsinə, ağacın qarşısında dua etməsinə, qədim hunların isə ağaca at qurbanı kəsməsinə, kəlləsini və dərisini də budaqlarına asmalarına bənzər adətin izlərinə "Düldül ocağı"nda rast gəlinməkdədir. Belə ki, ziyarətçilər bu ocağa at nalları gətirir və daş topalarının üzərinə qoyurlar.



Azərbaycanda müqəddəs ağac funksiyasını daha çox dağdağan ağacı daşımışdır. Onun qol-budağını qırmaq böyük suç sayılıbmış və bu işi görən şəxsin lənətlənərək ağac əyəsi tərəfindən muxtəlif ziyanlara düçar olduğuna inanılıb. Dağdağan ağacı sehirli gücə malik olduğundan yalnız qamlar (şamanlar) onun budaqlarından kiçik hissəciklər ayıraraq üzərinə isti dəmirlə bir neçə xət dağlayıb körpə uşaqların paltarlarına sancaqlayaraq onu bədnəzərdən qoruyurmuşlar. Bu inanc da bu günə qədər yurdumuzun ucqar yerlərində hələ də öz önəmini itirməmişdir və yaşamaqda davam edir. Belə yerlərdən biri yuxarıda adını çəkdiyimiz Tatar kəndidir. Burada əhali, islam dininə inanmasına baxmayaraq, hələ də öz kəndlərində məscid tikməyib və onların yeganə tapınaq yeri həmin ocaqlardır. Bölgə əhalisi dini matəm günlərində belə sözügedən ocaqların ətrafına toplaşırlar.



Yuxarıda qeyd etdiyimiz kimi, Düldül ocağı ağaca və ağac əyəsinə inancla bərabər, at kultuna inancın izlərini də özündə daşıyır. Ocağın adından da göründüyü kimi (Düldül Həzrət Əlinin

atının adıdır) bu ocaq əsasən ata müqəddəs heyvan kimi baxışı aşılamaqdadır. Bu ocaqda bir qayanın üzərində at nalının izi qazılmış və tapınaq bununla daha da qutsal xarakter almışdır. Bənzər halla Tovuz rayonu ərazisindəki Haçaqaya ocağında üzləşmək mümkündür.



Məsələ burasındadır ki, əski türk inanclarını islamiyyət dönəmində də yaşada bilmək üçün türklər bu inanclarını islami motivlərlə bəzəmək məcburiyyətində qalmış, həm Düldül, həm də Haçaqaya barədə islamiyyətlə əlaqələndirilən yeni bir nağıl uydurmuş, bu yolla da əski tapınaq yerlərini dağıdılmaqdan qorumuşlar. Uydurulmuş yeni rəvayətə görə, islamiyyətin başlanğıc dönəmində bu ərazilərdə güya Salsal adlı zülmkar bir pəhləvan hakim yaşayırmış. Bu hakim yerli xalqı incidib zülm etdiyindən onlar zamanın xəlifəsi olan həzrət Əliyə məktub yazıb ondan şikayət edirlər. Həzrət Əli özü atı Düldülün belində, çaparaq Salsal pəhləvanın davasına gəlir. Yol sərt qaya ilə örtüldüyündən qılıncını qayıya çarparaq atının keçişinə yol açır və burada atı Düldülün ayaq izi qayada qalır. Nəhayət Salsalı yenərək geri dönür…

Azərbaycan ərazisində Düldül adı daşıyan bir çox ocaqlar mövcuddur. onlardan biri də Cəbrayıl rayonundakı Düldül ziyarətgahıdır. T əbii ki, həmin ocaqların nə həzrət Əli, nə də onun atı ilə heç bir əlaqəsi yoxdur. Lakin zamanla xalq özünün uydurduğu yeni əfsanəyə inanmağa başlamışdır.

Artıq söylədiyimiz kimi, Düldül ocağında bir məzar bulunmaqdadır. Bu məzarda uyuyan şəxsin kimliyi haqda (yerli xalq onun hansısa seyid olduğunu iddia edir) elə həmin məzarın yaxınlığında kiçik bir qaya üzərində əski türk runik işarələri ilə bir yazı möcud olmuşdur. Lakin bu yazıya önəm verilməmiş və o, ocağın ərazisi genişləndirilərkən traktorla məhv

edilmişdir. Amma xoşbəxtlikdən həmin yazının üzünü vaxtı ilə dilçi alim Firudin Cəlilov köçürmüş və öz “Azər xalqı” adlı kitabında nəşr etdirmişdir. Gerçəkləşdirdiyimiz oxunuş da məhz həmin şəklə əsaslanır..



Ş

ölüm tarixini, yəni hicri 135(138)-ci, miladi 752 (755) -ci ili göstərir. Yox, əgər burada kriptoqramla üz-üzəyiksə, o zaman əbcəd sistemindən istifadəyə ehtiyac yaranır. Bu sistemi 138 ədədinə tətbiqi heç bir məna ifadə etmir. 135 isə قلة "qolle" (qüllə, zirvə, dağ başı və s.) anlamına gəlir. Əgər bu versiya doğrudursa, o zaman 135, yəni "qüllə" kəlməsi eyni mahiyyətli ocaq olan Haçaqayaya işarə edə bilər.



Tovuzun ən maraqlı abidələrindən biri də üzərində alban yazılarının olduğu söylənilən, Yanıqlı yaxınlarında, dağ başında yerləşən qəbir daşlarının bulunduğu qədim alban məzarlığıdır. Belə yazıları gördüklərini yerli sakinlər təsdiqləməkdədirlər. Fəqət qəbristanlıq artıq keçilməz, tikanlarla dolu kol və ağaclarla örtülüb və qəbirlərə ulaşmaq xüsusi alətlər olmadan mümkün deyildir. Sadəcə iki qəbir daşını görmək olur ki, onların da hər ikisinin üzərində sadəcə xaç işarələri var. Üzərləri mamırla örtülü olduğundan onlarda yazıların olub - olmadığını müəyyənləşdirmək çətindir. Mamırları təmizləməklə ehtimali yazıları təxrib etmək olar. Bu işi mütəxəssislər görməlidirlər.





